*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.98-102*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.98-102*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.98-102*

**UOT: 37.03:94(100)**
https://doi.org/10.30546/670832.2025.01.917

# Tarix təliminin metodları və onların təsnifatına dair

**Müəllif(lər):**

**Aytəkin Qəhrəmanova**
Naxçıvan Müəllimlər İnstitutu
Tarix üzrə fəlsəfə doktoru
**E-poçt:** aytekinqehramanova@nmi.edu.az
https://orcid.org/ 0009-0008-4946-1824

**Açar sözlər:** tarix, təlim metodları, tənqidi təfəkkür, tarixi faktlar, müəllim, şagird

**Annotasiya.** Məqalədə tarix fənninin tədrisində tətbiq olunan təlim metodlarının elmi-pedaqoji əsasları, onların təsnifatı və müasir təhsil mühitində rolu təhlil olunur. Tədqiqatın məqsədi təlim prosesində istifadə edilən metodların mahiyyətini müəyyənləşdirmək, onların şagirdlərin tənqidi və analitik təfəkkürünün inkişafına təsirini araşdırmaqdır. Ənənəvi və müasir təlim metodları arasında aparılan müqayisə göstərir ki, fəal təlimə əsaslanan şagirdyönümlü yanaşmalar – layihə metodu, problemyönlü təlim, debat, diskussiya və şifahi şərh – şagirdlərin təlimə aktiv cəlb olunmasını təmin edir və onların tarixə marağını artırır. Məqalədə təlim metodlarının idrak fəaliyyəti səviyyəsinə, bilik mənbəyinə və təşkilati formalarına görə sistemləşdirilməsi və bu təsnifatların tədrisdə tətbiq prinsipləri izah olunur. Eyni zamanda müəllimin pedaqoji bacarığı, şagirdlərin fərdi xüsusiyyətləri və dərsin məqsədinə uyğun metod seçimi məsələləri də vurğulanır. Nəticə olaraq qeyd edilir ki, təlim metodlarının düzgün seçimi şagirdlərə tarixi hadisələri dərindən təhlil etmək, səbəb-nəticə əlaqələrini qurmaq, mənbələrlə işləmək və praktik bacarıqlar qazanmaq imkanı yaradır.

**Author(s):**

**Aytakin Gahramanova**
Nakhchivan Teachers Institute
PhD in History
**E-mail:** aytekinqehramanova@nmi.edu.az
https://orcid.org/ 0009-0008-4946-1824

**Key words:** history, teaching methods, critical thinking, historical facts, teacher, student

## On the methods of teaching history and their classification

**Abstract.** The article analyzes the scientific and pedagogical foundations of the teaching methods applied in the instruction of the history subject, their classification, and their role in the modern educational environment. The aim of the research is to identify the essence of the methods used in the teaching process and to examine their impact on the development of students' critical and analytical thinking. A comparison between traditional and modern teaching methods shows that student-centered approaches based on active learning – such as the project method, problem-based learning, debates, discussions, and oral commentary – ensure active student engagement in learning and increase their interest in history. The article explains the systematization of teaching methods according to the level of cognitive activity, sources of knowledge, and organizational forms, as well as the principles of applying these classifications in teaching. It also emphasizes the importance of the teacher's pedagogical skills, students' individual characteristics, and the selection of appropriate methods in line with the lesson objectives. As a result, it is noted that the correct selection of teaching methods enables students to deeply analyze historical events, establish cause-effect relationships, work with sources, and acquire practical skills.

**Автор(ы):**

Айтекин Гахраманова
Нахчыванский институт учителей
Доктор философии по истории
**E-почта:** aytekinqehramanova@nmi.edu.az
https://orcid.org/ 0009-0008-4946-1824

**Ключевые слова:** история, методы обучения, критическое мышление, исторические факты, учитель, ученик

## К методам обучения истории и их классификациям

**Аннотация.** В статье анализируются научно-педагогические основы методов обучения, применяемых в преподавании исторического предмета, их классификация и роль в современной образовательной среде. Целью исследования является выявление сущности методов, используемых в процессе обучения, изучение их влияния на развитие критического и аналитического мышления учащихся. Сравнение традиционных и современных методов обучения показывает, что ориентированные на учащихся подходы, основанные на активном обучении – метод проектов, проблемное обучение, дебаты, дискуссии и вербальные комментарии – обеспечивают активное вовлечение учащихся в обучение и повышают их интерес к истории. В статье объясняется систематизация методов обучения по уровню познавательной деятельности, источникам знаний и организационным формам, а также принципы применения этих классификаций в обучении. При этом выделяются вопросы педагогической компетентности учителя, индивидуальных особенностей учащихся и выбора методов, соответствующих цели урока. В заключение отмечается, что правильный выбор методов обучения дает возможность учащимся глубоко анализировать исторические события, устанавливать причинно-следственные связи, работать с источниками, приобретать практические навыки.

Təlim metodları pedaqoji prosesin ayrılmaz hissəsi olub, təlimin məqsəd və məzmununa uyğun olaraq müxtəlif formalarda təzahür edir. Digər fənlərdə olduğu kimi, tarix fənninin də tədrisinin keyfiyyət və səmərəliliyinin artırılması müasir təlim metdodlarının düzgün seçilməsindən birbaşa asılıdır. Aydındır ki, təlim metodları müəllimin qarşısına qoyduğu məqsədə nail olmaq üçün istifadə etdiyi yollar və vasitələr sistemidir. Tədris prosesində düzgün seçilən təlim metodları müəllim və şagirdlər arasında qarşılıqlı əlaqənin yaradılmasında mühüm rol oynayır, eyni zamanda tətbiq edilən metodlar təlim prosesinin həm fəallığını, həm də səmərəliliyini artırır [2, s.247].

Əgər metodlar düzgün seçilib təsnifləşdirilərsə və tədris prosesində düzgün tətbiq edilərsə, o zaman şagirdlərdə tənqidi və analitik düşüncənin inkişafına sitimul verilər. Bununla yanaşı, şagirdlərdə tarixi hadisələri təhlil edib, müqayisə aparmaq və bunun nəticəsində əldə etdikləri məlumatlar əsasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verər, eyni zamanda onlarda praktik bacarıqlar formalaşdırar.

Bu günkü tədris sistemində əsas məqsəd şagirdlərin bilikləri hazır şəkildə deyil, müəllimin bələdçiliyi (fasilitasiya) ilə müstəqil şəkildə əldə etmələrindən ibarətdir.

Bu tədqiqatın aparılmasında əsas məqsəd təlim prosesi zamanı tətbiq olunan metodların elmi-pedaqoji mahiyyətini araşdırmaq, onların təsnifat prinsiplərini müəyyənləşdirmək və müasir təhsil sistemində daha yüksək səmərəlilik və keyfiyyət əldə etməkdir. Eyni zamanda tədris prosesində şagirdlərin müstəqil şəkildə işləmək bacarıqlarını formalaşdırmaq, bilikləri hazır şəkildə deyil, müəllimin bələdçiliyi ilə müstəqil şəkildə əldə etməkdən ibarətdir.

Tədqiqatın vəzifəsi əsasən təlim metodlarının mahiyyətini, tarixini və inkişaf mərhələlərini izah etmək, müxtəlif pedaqoji yanaşmaların təlim metodlarına təsirini göstərmək, təlim metodlarını məqsədlərinə, məzmununa, müəllim-şagird münasibətlərinə və tətbiq sahələrinə görə sistemləşdirmək, verilən təsnifatın məntiqi əsaslarını izah etmək və praktik nümunələrlə zənginləşdirmək, müəllimlər üçün metodların düzgün seçimi və tətbiqi ilə bağlı tövsiyələr vermək, metodların üstünlükləri və çatışmazlıqları təhlil etmək, yaş qrupları üzrə uyğun təlim metodlarının seçilməsinə istiqamət verməkdən ibarətdir.

Müasir təlim metodları. Müasir təlim metodları şagird yönümlü olub, fəal təlim prinsipinə əsaslanır. Bu metodlar cəmiyyətin inkişaf dinamikasına uyğun olaraq onun tələbatına cavab verir və şagirdlərin fəallığını artırır. Müasir təlim metodlarına Layihə metodunu misal göstərmək olar. Bu metod şagirdin müəyyən bir problemin həllinə yönəlmiş fəaliyyətini təşkil edir. Bu metod zamanı şagirdlər fərdi, ya da kollektiv şəkildə tədqiqat aparır, material toplayır və yaradıcı şəkildə təqdim edirlər. Bu, şagirdlərdə tənqidi təfəkkürün inkişafına şərait yaradır. Problemyönlü təlimdə müəllim problemli vəziyyət yaradır və şagirdləri bu problemin həllinə yönəldir. Bu, onları müstəqil düşünməyə, qərar qəbul etməyə sövq edir. Diskussiya, debat, beyin həmləsi, rol oyunu kimi metodlar interaktivliyi artırır və şagirdlərin dərsə fəal cəlb olunmasını təmin edir [10, s.42].

Bütün fənlərdə olduğu kimi, tarix dərsinin tədrisi prosesinin səmərəli və keyfiyyətli olması üçün ilk növbədə metodların düzgün seçilməsi bununla yanaşı, müəllimin həm təcrübəsi, həm də tədris etdiyi fənni dərindən bilməsindən irəli gəlir. Müəllim tədris prosesində metodları düzgün seçməklə bərabər, həm də şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq, onların mövzunu daha mükəmməl və ətraflı mənimsəmələri üçün geniş bilik və bacarığa malik olmalıdır. Eyni zamanda dərsin keyfiyyətini və səmərəliliyini artırmaq məqsədi ilə müəllim, mövzuya uyğun tətbiq etdiyi metodla yanaşı, digər təlim metodlarından da istifadə etməlidir. Bu zaman sinifdə dinamik və fəal mühit yaranır.

Ümumiyyətlə, tarix dərslərində təlim metodu müəyyən edilərkən müəllim əsasən təlimin məqsədi və vəzifələrini, şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini, dərsin məzmununu və fənnin spesifik xüsusiyyətlərini, həmçinin maddi-texniki imkanları və digər bu kimi meyarları nəzərə alır.

Tarix fənnin tədrisində tarix elminin xüsusiyyətlərinə uyğun metodları tətbiq etmək, yəni tarixi hadisələrin izahı, mənbələrlə iş, müzakirə və təhlil kimi üsulların istifadəsini sistemləşdirmək lazım gəlir. Onda dərs daha səmərəli və keyfiyyətli olar. Təlim metodları cəmiyyət inkişaf etdikcə, onun tələblərinə, eyni zamanda təhsil

sisteminin inkişafına uyğun olaraq dəyişir, yenilənir və təkmilləşir. Digər fənlərlərdə olduğu kimi, tarix fənninin tədrisində də bu yanaşmalar nəzrə alınır.

Qeyd etmək lazımdır ki, tədris zamanı tətbiq olunan metodlar müxtəlif meyarlar əsasında təsnif olunur:

**İdrak fəaliyyəti səviyyəsinə görə təsnifləşdirmə. Bu təsnifatda əsas diqqət şagirdlərin təfəkkür** səviyyəsinə yönəlir və pedaqoqlar onu bir sıra metodlara ayırırlar:

- İzahat-illüstrativ metod: Bu metodda müəllim yeni məlumatı izah edir, şagirdlər isə onu qəbul edir və yadda saxlayır. Bu metod ənənəvi dərslərdə daha geniş yayılmışdır.

- Reproduktiv metod: Şagirdlər müəllimin təqdim etdiyi biliklər əsasında verilən tapşırıqları yerinə yetir;

- Problemli izahat metodu: Müəllim dərs zamanı problem vəziyyəti yaradır və onun həllini şagirdlərlə birlikdə axtarır;

- Tədqiqat metodu. Şagirdlər özləri tədqiqat aparır, nəticələr çıxarır və müstəqil düşüncə formalaşdırırlar [4, s.69].

**Bilik mənbəyinə görə təsnifləşdirmə**: Bu təsnifatda əsasən təlimin informasiya resursları nəzərə alınır. Bu təsnifata aiddir:

- Şifahi metodlar: Mühazirə, söhbət, izah, müzakirə, hekayə.

- Vizual (görmə) metodlar: Demonstrasiya, illüstrasiya, ekskursiyalar.

- Praktik metodlar: Laboratoriya işləri, məşğələlər, təcrübələr, praktiki fəaliyyətlər [1, s.118].

**Təlimin təşkilati formalarına görə təsnifləşdirmə.** Bu təsnifata addir: fərdi metodlar- şagirdlər təkbaşına fəaliyyət göstərir; qrup metodları-şagirdlər birgə işləyir, məsələn: layihə metodu, debat, və s.; cütlərlə iş - şagirdlər bir-birinə öyrədir [6, s.87].

Tarix fənninin tədrisi prosesində tətbiq edilən metodlardan biri müasir tədris mühitində hələ də öz əhəmiyyətini bu gün də qoruyub saxlayan şifahi şərh metodur. Şifahi şərh metodu uzun illərdir ki, təhsil sistemində tətbiq edilir. Bu metodun əsas məqsədi hadisələrin səbəb və nəticə əlaqələrini, zaman və məkan kontekstində ardıcıl və canlı şəkildə təqdim etməkdir [3, s.87]. Metodun tətbiqi zamanı müəllim şifahi şərh, mühazirə, diskusiya, müsahibə, sual-cavab və s. nəqletmə materiallarından istifadə edərək mövzunu şagirdlərə çatdırır [2, s.248-249]. Şagirdlər isə müəllim tərəfindən hazır şəkildə nəql edilən mövzunu öyrənib, təkrar edib, yadda saxlayırlar, növbəti dərsdə isə öyrəndikləri mövzunun mətnini danışırlar.

Məsələn, "Gülüstan müqaviləsi və onun Azərbaycanda yeri" mövzusunun tədrisi zamanı müəllim mövzunun mətnini şərh edərkən qeyd edir ki, 1813-cü ildə Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsi Azərbaycanın tarixi taleyində dönüş nöqtəsi olmuşdur. Müqaviləyə əsasən, Şimali Azərbaycan torpaqlarının böyük bir hissəsi Rusiya tərəfindən işğal olunub Rusiya imperiyasının tərkibinə daxil edilmiş, Cənubi Azərbaycan isə Qacarların hakimiyyətində qalmışdır. Bu müqavilə ilə Azərbaycan torpaqları iki yerə bölünmüş, bir millətin coğrafi və siyasi bütövlüyü pozulmuşdur. Müqavilə, həm də Cənubi Qafqazın gələcək siyasi xəritəsini müəyyən edən sənədlərdən biri olmuşdur.

Bu mövzu ilə əlaqədar müəllim şagirdə bu cür suallar verə bilər:

1. Gülüstan müqaviləsinin imzalanmasına səbəb olan amillər hansılardır?
2. Bu müqavilənin Azərbaycan xalqı üçün doğurduğu nəticələr nələr olmuşdur?
3. Müqavilənin imzalanması ilə bölgədə hansı dəyişikliklər baş verdi?
4. Sizcə, bu hadisə Azərbaycan xalqının milli birliyinə necə təsir göstərdi?

Suallarla yanaşı, müəllim şagirdlərə fikri şifahi şəkildə şərh etmələri üçün belə bir tapşırıq verə bilər: "Gülüstan müqaviləsi təkcə bir sənəd deyil, həm də Azərbaycan tarixində dərin iz buraxmış faciəvi bir ayrılığın başlanğıcıdır". Bu suallara hər bir şagird subyektiv olaraq öz fikirini söyləyir. Müəllimin mövzunu şagirdlərə ətraflı şərh etməsi, mövzu ilə bağlı şagirdlərə ətraflı suallar verməsi nəticəsində şagirdlər Gülüstan müqaviləsinin bağlanma səbəblərini öyrənir, onun siyasi nəticələrini anlayır və bu hadisəni şifahi şəkildə nəql edə bilirlər. Göründüyü kimi, bu metod təkcə informasiya ötürməyə deyil, həm də şagirdin təfəkkürünü və təxəyyülünü inkişaf etdirməyə yönəlmişdir [11, s.45-51].

Şifahi şərh metodunun tətbiqi zamanı müəllimin səs tonunun dəyişkənliyi, nitqinin aydın və

səlis olması, mövzunun məzmununu daha təsirli və inandırıcı edir. Əgər müəllim tarix dərsinə şagirddə maraq oyatmaq istəyirsə, onlara bilik vermək, onları bir şəxsiyyət kimi formalaşdırmaq istəyirsə, özünün nitq mədəniyyəti üzərində müntəzəm işləməli, şərh üslubunu təkmilləşdirməli, veriləcək materialların məzmununa marağın artırılması uyğun yeni metodların tətbiqindən çəkinməməlidir [7, s.35].

Tarix dərslərində şifahi şərh metodu daha çox xronoloji hadisələrin izahı, səbəb-nəticə əlaqələrinin qurulması, tarixi şəxsiyyətlərin fəaliyyəti və tarixi dövrlərin təhlili zamanı tətbiq olunur. Məsələn, Azərbaycan tarixi fənnindən "Azərbaycan erkən orta əsrlərdə (III-IX əsrlər)" mövzusunun tədrisi zamanı mühazirə üsulnundan istifadə edərkən mövzunu dərindən təhlil edərək tarixi hadisələr şərh edilib, səbəb-nəticə əlaqələri izah edilir. Şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə müəllim mühüm məqamları vurğulamaqla diqqəti həmin istiqamətə yönəltməyə çalışmalıdır. Yeni dərsin izahı zamanı tarixi hadisələr və hadisələri əhatə edən dövrlər (illər) ardıcıllıqla sistemli şəkildə lövhəyə yazıb şagirdlərə çatdırılır. Şagirdlər isə dərs müddətində geniş həcmdə məlumatlar əldə edirlər. Dərsin izahı zamanı mövzular arasında əlaqə yaratmaq məqsədi ilə keçmiş dərsə inteqrasiya edilməsi dərsi daha da maraqlı edir. Çalışmaq lazımdır ki, bu metodu tətbiq edən zaman şagirdlər passiv olmasın. Çünki, bu metodun çatışmayan cəhəti də məhz dərs prosesində şagirdlərin məlumatı passiv dinləməsidir, bu isə dərsin fəallığını azalda bilər. Şagirdlər tarixi hadisələr barədə tənqidi düşünmək və müzakirə aparmaq üçün daha az imkan əldə edirlər. Bu metodun tətbiqi zamanı onlarda yadda saxlama çətinliyi yarana bilər. Bütün bu çatışmayan cəhətləri aradan qaldırmaq məqsədi ilə bütün şagirdləri tədris prosesinə cəlb etmək üçün onlara mövzuya dair suallar verilməsinə təşviq etmək lazımdır. Məsələn: şagirdlərə mövzu ilə bağlı aydın, daha sadə və konkret sualla müraciət etmək olar: "Erkən orta əsrlədə Azərbaycanda hansı dövlətlər mövcud idi?" və yaxud "Onların yaranma tarxi haqqında nə deyə bilərsiniz?". Bu zaman hər bir şagird suala fərdi baxış bucağından baxaraq cavablandırır. Verilən cavablar nəticəsində zəif şagird də sual-cavabda iştirak edir, sinifdə olan bütün şagirdlər bu prosesə cəlb olunur. Əslində verilən suala cavab lövhədə öz əksini tapmışdır. Çünki, mövzuya dair hadisələr və dövrlər müəllim tərəfindən mövzunu izah edərkən lövhədə xronoloji ardıcıllıqla yazılır. Bu sualı verməkdə müəllimin məqsədi sinifdə zəif olan şagirdləri dərs prosesinə cəlb etməkdir. Aydındır ki, dərs müəyyən dərəcədə səsli-küylü keçir. Bu zaman dərs prosesini tam nəzarətdə saxlamağa çalışmaq lazımdır.

Mühazirə üsulunu tətbiq etdikdə şagirdlərin fəal iştirakını təmin etmək üçün suallar vermək və cavabları müzakirə etmək, mühazirə şagirdləri yormasın deyə, onun əsas məqamlarını vurğulamaq lazımdır. Bu prosesdə müəllim əlavə olaraq qrup işləri, debatlar və interaktiv müzakirələr əlavə etməklə dərsi daha canlı edə bilər. İnteraktiv müzakirələr dərsi daha yaddaqalan və səmərəli edər, bununla yanaşı, şagirdlərin nitq qabiliyyətləri daha da inkişaf edər.

**Material və metodlar.** Tədqiqat aparılarkən elmi-nəzəri təhlil metodu ilə bağlı mövcud elmi ədəbiyyatlardan M.Əmirovun, S.Əhmədovun, A.Əliyevanın, T.Hüseynovun, M.Məmmədovanın və digərlərinin elmi ədəbiyyatlarının təhlili aparılmış, müxtəlif pedaqoqların yanaşmaları müqayisə edilmişdir. Araşdırmalar zamanı ənənəvi və müasir təlim metodlarının tarix dərslərindəki tətbiqi müqayisə edilmiş, onların üstün və zəif cəhətləri müəyyənləşdirilmişdir. Tədqiqatın məqsədinə uyğun olaraq aşağıda təlim metodlarını təsnifatı və tətbiq edilən metodlardan bəhs edilmişdir.

**Nəticə və müzakirə.** Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, təlim metodlarının düzgün seçimi və məqsədyönlü tətbiqi tarix fənninin tədris keyfiyyətinə birbaşa təsir göstərir. Ənənəvi və müasir metodlar arasında aparılan müqayisə göstərir ki, müasir – yəni şagirdyönümlü və fəal təlim metodları – tənqidi və analitik təfəkkürün inkişafına daha çox şərait yaradır. Tarix dərslərində problemyönümlü təlim, layihə metodu, diskussiya və beyin həmləsi kimi üsullar şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların müstəqil fikir yürütmə və tarixi hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək bacarıqlarını da inkişaf etdirir.

Təlim metodlarının təsnifatı üzrə aparılmış təhlil onu göstərir ki, hər bir təsnifat kriteriyası

(idraki fəaliyyət səviyyəsi, bilik mənbəyi, təşkilati formalar) müəllimin metod seçiminə sistemli yanaşmasını təmin edir. Belə yanaşma dərsin məqsəd və vəzifələrinə, şagirdlərin fərdi xüsusiyyətlərinə, fənnin spesifikasına uyğun metodların tətbiqinə şərait yaradır. Eyni zamanda, araşdırmalarda müəllimin pedaqoji ustalığının, resurs imkanlarının və tədris mühitinin təlim metodlarının effektivliyində mühüm rol oynadığı vurğulanır.

**Yekun nəticə.** Tarix fənninin tədrisi prosesində təlim metodlarının və onların təsnifləşdirilməsi istiqamətində əsas məqsəd, şagirdlərin tarixi bilikləri daha dolğun mənimsəmələrini, təfəkkür qabiliyyətlərinin inkişaf etmələrini, o cümlədən analitik düşünmə bacarıqlarını formalaşdırmalarını təmin etməkdir. Tarixin tədrisi prosesində mövzuya uyğun olaraq metodların seçilməsi nəticəsində tarixi faktlar, hadisələr və proseslər həm ardıcıl həm də şagirdlərin başa düşəcəkləri anlaşıqlı şəkildə izah edilməlidir. Metodların düzgün seçilməsi və təsnifləşdirilməsi tədris prosesində şagirdlərin tənqidi və analitik düşüncənin inkişafına səbəb olur və şagirdlərə tarixi hadisələri analiz etmək, müqayisə aparmaq və səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı yaradır, onlarda praktik bacarıqlar formalaşır. Yəni tarixi mənbələrlə, o cümlədən xəritələr üzərində işləmək, statistik məlumatları əldə edib onları qiymətləndirmək kimi bacarıqlar inkişaf etdir, onlarda fənnə qarşı maraq oyadır.

**Ədəbiyyat**

1. Babayev, Ə. Pedaqoji texnologiyalar / Ə.Babayev. – Naxçıvan: NDU, – 2015. – 372 s.
2. Əmirov, M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası: ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti / M.Əmirov. – Bakı, – 2011. – 706 s.
3. Əhmədov, S. Tarixin tədrisində metodik yanaşmalar / S.Əhmədov. – Bakı: Təhsil, – 2019. – 154 s.
4. Əliyeva A. Müasir təlim metodları və texnologiyaları / A.Əliyeva. – Bakı: Təhsil, – 2020.
5. Hüseynov, T. Tarix fənninin tədrisində interaktiv metodların rolu // Elm və təhsil. – 2022. № 6(1). – s. 58–64.
6. Kərimov, T. Təlimdə yeni yanaşmalar / T.Kərimov. – Gəncə: Elm və təhsil, – 2017. – 87 s.
7. Məmmədova, M. Tarixin tədrisinin aktual problemləri: dərs vəsaiti / M.Məmmədova.– Bakı: Bakı Universiteti, – 2015. – 112 s.
8. Nasibli, R. Tarix tədrisində müəllim nitqinin rolu // Müəllim və zaman. – 2020. Vol. 4(1). – s. 27-32.
9. Qasımov, A. Tarix dərslərində şifahi şərh və vizual materialların sintezi // Təhsil problemləri. – 2017. № 2(4). – s. 71–76.
10. Səfərov, R. İnnovativ tədris metodları / R Səfərov. – Sumqayıt: Müəllim, 2021. – 42 s.
11. Vəliyev, M. Tarix dərslərində şifahi izah üsullarının effektivliyi // Pedaqoji elmlər. – 2021. № 3(2). – s. 45–51.
12. Vıqotski, L.S. Pedoqoji psixologiya / L.S. Vıqotski. – Moskva: Prosveşşeniye, 1982.

*Məqalə tarix üzrə elmlər doktoru, dosent Zeynəb Quliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 25.02.2025, qəbulolunma – 11.03.2025